**UOT 32**

# DİASPOR QURUCULUĞUNDA AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ ROLU

**Pərvanə MƏMMƏDOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 22 noyabr 2024; çapa qəbul edilmişdir: 3 dekabr 2024; online-da çap edilmişdir: 19 mart 2025.
Received: 22th of November, 2024; accepted: 3th of December, 2024; published online: 19th of March, 2025.

**Açar sözlər:** *milli ideologiya, milli birlik, azərbaycançılıq, Azərbaycan diasporu, diaspor quruculuğu*

## Giriş

Milli ideologiyanın formalaşması və xaricdə yaşayan həmvətənlərin həmin ideologiya ətrafında birləşməsi diaspora quruculuğunda vacib məsələ hesab olunur. Artıq beynəlxalq praktikada diasporların ideologiya ətrafında cəmlənərək möhkəmlənməsi və güclü təşkilata çevrilməsi danılmaz faktdır. Azərbaycan diaspor quruculuğunda isə mühüm rol oynayan milli ideologiyamız azərbaycançılıqdır.

Diaspor siyasətinin həyata keçirilməsində milli məfkurəmizin əvəzolunmaz rolu onun istər etnik mənsubiyyətindən asılı olmayaraq, ölkə daxilində yaşayanlar, istərsə də ölkə xaricinə miqrasiya edənlər üçün bərabər münasibət bəsləməsi ilə bağlıdır.

Azərbaycan çoxmillətli və çoxkonfenssiyalı ölkədir. Ölkəmizdə bütün xalqların, mədəniyyətlərin və dinlərin nümayəndələri bir ailə kimi, sülh, dostluq və mehribanlıq şəraitində yaşayırlar. Azərbaycanda heç vaxt dini, milli zəmində qarşıdurma olmayıb. Bu, böyük bir sərvətdir. Bu reallıq müxtəlif etnik qrupların vahid dövlətdə multikulturalizmin, sivil birgə yaşayışının və əməkdaşlığının gözəl nümunəsidir. Eyni zamanda, bu, ayrı-seçkiliyin, irqçiliyin, ksenofobiyanın, antisemitizmin və islamofobiyanın istənilən formasını rədd edən prinsipial siyasətin nəticəsidir. Bütün bu hadisələr çox təhlükəlidir [10, s. 176].

## 1. Azərbaycançılıq ideyaları haqqında

Azərbaycanın dövlət siyasətinin əsas strateji xəttini ölkə ərazisində yaşayan hər kəsin – milliyyətindən, dini mövqeyindən, sosial statusundan və s. asılı olmadan bərabər şəkildə yaşaya bilməsini təmin etməkdən ibarətdir. Eyni zamanda dövlətimiz ölkə xaricində yaşayan həmvətənlərimizin də qayğısına qalır və bu istiqamətdə əməli tədbirlər görür. Buna uyğun olaraq xaricdə yaşayan həmvətənlərimiz də vətənimizə bağlılığını itirməməli, qərib yerdə olmasına baxmayaraq özünü bu vətənin övladı sanmalıdır.

Ötən əsrin 70-80-cı illərində vətənpərvər və milli ruhlu bir liderin – Heydər Əliyevin Azərbaycana rəhbərliyə irəli çəkilməsi hər bir azərbaycanlıda milli özünüdərk hisslərini, soy-kökə bağlılığı gücləndirmiş, həm də xaricdə yaşayan soydaşlarımızla əlaqələrin güclənməsinə əlverişli imkanlar yaratmışdır. Ulu Öndər Heydər Əliyev

**dissertant, Gəncə Dövlət Universiteti*
*e-mail:* mammedovaparvane@gmail.com; parvana.mammadova@gdu.edu.az
*ORCİD:* 0000-0003-0330-3683
**https://doi.org/10.30546/25194011.2025.14.1.065**

azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini – ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru – müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurdu. Ümummilli Lider məhz həmin illərdə milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir [11, s.10].

Təsadüfi deyildir ki, Heydər Əliyev hələ Naxçıvanda olarkən cəbhəçilərin «fəaliyyətində» məhz əyalətçilik psixologiyasını pisləyir, xalqımızın dövlətçilik ənənələrinə zidd, mənəviyyatı ilə bir yerə sığmayan əyintiliklərə yol verməsini xüsusi vurğulayırdı... Dünyada baş verən yeniliklərə həssaslıqla reaksiya verən Heydər Əliyev hələ hakimiyyətə ikinci gəlişindən əvvəl haqlı olaraq xəbərdarlıq edirdi: "Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadə olunmasına yol verilməməlidir" [ 4, s. 50-51].

Heydər Əliyev Azərbaycan demokratikliyinin davamlılığı prinsipini qoruyub saxladı. Cümhuriyyət və milli-ideoloji baxışlar sisteminin formalaşmasında ADR qurucuları tərəfindən irəli sürülmüş azərbaycançılıq ideologiyasına bir vaxtlar Azərbaycan xalqının suverenlik ideyalarını möhkəmlətməyə yönəlmişdir. Heydər Əliyev qeyd edirdi ki, milli ideologiya tarixi keçmişimizlə, xalqın adət-ənənələri ilə, eləcə də dövlətin bu günü və gələcəyi ilə bağlı olmalıdır. 1993-cü ildən başlayaraq Azərbaycan dilinin rəsmi dövlət statusu alması və latın qrafikasının tətbiqi, Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və inkişaf etdirilməsi, azərbaycançılıq ideyalarının və milli dəyərlərin dünya miqyasında yaşayan soydaşlarımız arasında geniş təbliği, hər il 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün keçirilməsi və bu münasibətlə xarici ölkələrdə yaşayan həmvətənlərimizin iştirakı ilə keçirilən forumlar, xarici səfərlər zamanı Heydər Əliyevlə görüşlər və s. azərbaycançılıq ideologiyasının dövlət səviyyəsində həyata keçirilməsinin bariz nümunəsi idi [9].

Heydər Əliyevin qayıdışından sonra apardığı milli siyasət konsepsiyasında dünya azərbaycanlıları ilə, ümumilikdə isə Azərbaycandan olan mühacirlərlə iş prioritet yerlərdən birini tuturdu. Heydər Əliyev hələ Naxçıvan şəhərində işlədiyi müddətdə 1991-ci il dekabrın 16-da "31 dekabr – Azərbaycan türklərinin bütün dünyada həmrəylik və birlik günü" haqqında tarixi fərman imzalamışdır [1, s. 466].

## 2. Diaspor anlayışının mahiyyəti

"Diaspor" termini yunan dilindən alınmadır və o, "diaspora" sözündən olub hərfən «dağılma, səpələnmə, yayılma» kimi tərcümə olunaraq aşağıdakı mənanı verir – "xalqın və ya etnik birliyin müəyyən hissəsinin mənsub olduğu ölkənin hüdudlarından kənarda yaşaması".

Xüsusən də, ideoloji işin və strateji təbliğat mexanizminin önəmli tərkib hissəsi olan diaspor məsələsi müstəqil dövlətlərin daim önəm verdiyi, formalaşmasına və inkişafına çalışdığı sahələrdəndir. İstər milli-mənəvi dəyərlərin uğurla təbliği, istər dünya dövlətləri ilə sıx münasibətlərin qurulması, istərsə də xarici siyasət sahəsində konkret nəticələrin əldə olunmasında diasporun rolu əvəzsizdir [12, s.6].

Terminin sosioloji şərhi Zh.T.Toshchenko tərəfindən olduqca ətraflı izah olunduğu ortaya çıxır. Onun üçün bu, öz tarixi vətəninin hüdudlarından kənarda (və ya əhalisinin məskunlaşma zonasından kənarda) yad etnik mühitdə yaşayan və bu tarixi icmanın inkişafı və fəaliyyəti üçün ictimai təşkilatlara malik olan eyni etnik mənşəyə (bir və ya onunla bağlı olan millətlərə) mənsub olan insanların sabit cəm halında yaşamasıdır. Müəllif belə bir xüsusiyyəti, özünü təşkil etmək bacarığı kimi vurğulayır. Bu da diasporun uzun müddət mövcud olmasına imkan verir, nisbətən özünü təmin edən orqanizm olaraq qalır [3, s. 7].

Son illər «diaspor» termini əvvəlki işlərə nisbətdə daha geniş mənada işlənməyə başlanmışdır. Müasir dövrdə diasporlaşdırma fenomenini şərh edərkən hansı milli azlıqların diaspor kimi qəbul edilməsi üçün aşağıdakı kateqoriyaları bir-birindən fərqləndirmək lazımdır: 1) Diaspor; 2) Mühacirət; 3) Müstəmləkələşdirmə; 4) Xalq: Dövlət sərhədləri ilə iki hissəyə parçalanmış xalq (məs. Cənubi və Şimali Azərbaycan); 5) Müstəqil dövlətə malik olmayan xalq; 6) Səpələnmiş şəkildə yaşayıb, qarşılarına dövlət qurmaq məqsədi qoymayan xalq (qaraçılar); 7) Xalq və ya etnik qrup hansı ki, öz tarixi vətəni ilə əlaqələrini itirmişdir (Amerikanın qara dərili əhalisi) [5, s.11-12].

Diasporun coğrafi cəhətlərinin öyrənilməsi isə aşağıdakı prinsiplər üzərində qurulub: 1. Diasporların səpələndiyi kənd, qəsəbə, rayon və şəhərlərdəki ərazilərdə onların sosial-professional strukturunu öyrənmək. Analiz edilən hər bir diasporun sayı demoqrafik göstəricilərin öyrənilməsinə yardımçı olur. 2. Diaspor elə bir şəbəkədir ki, coğrafiyaşünaslar onun qlobal əhəmiyyət daşımaq iqtidarında olduğunu bildirirlər. Bu şəbəkələr arasında əlaqə dünyada baş verən ictimai-siyasi proseslərdən və dövlətlərarası münasibətdən asılı vəziyyətdədir [6, s.15].

Diasporlara iki əsas prizmadan baxmaq olar: 1) ən çox müxtəlif kataklizmlər nəticəsində yaranan xüsusi tarixi hadisə kimi; 2) həyat tərzinin şüurlu seçimi nəticəsində - fərdi-ekzistensial dizayn çərçivəsində həyat və ya sosial layihə. Diasporun bir-biri ilə əlaqəli və bir-birindən asılı olan alt sistemləri var: sosial, mənəvi və siyasi. Aydındır ki, diaspor bir sosial altsistem kimi müxtəlif tipli və sosial şəraitli cəmiyyətlərin tərkibində fəaliyyət göstərir ki, bu da yaratdığı qurumlarda, bəyan etdikləri məqsəd və vəzifələrdə öz izini buraxmaya bilməz. Sosial altsistem mənəvi dəyərlərin, adət-ənənələrin və ənənələrin daşıyıcısıdır. Bu alt sistemlərin qarşılıqlı əlaqəsi göz qabağındadır. Diasporlar daxilində yaradılan qurumlar heç də həmişə siyasi xarakter daşımır. Lakin siyasi altsistem diaspora xasdır. Üstəlik, onun mövcudluğu həm açıq, həm də gizli formada özünü göstərə bilər. Mənəvi alt sistem deyilən bir məcmuya ideyalar, baxışlar, ənənələr, miflər və adətlər daxildir. Üstəlik, miflər və adət-ənənələr çox vaxt iman əsasında dominant rol oynayır, qrup təqlid mexanizmləri ilə qidalanır.

Diasporların inkişafını şərtləndirən faktorlara həm xarici, həm də daxili diasporal səbəblər daxildir: a) ölkənin sosial-iqtisadi vəziyyəti, diasporanın yaşayış yeri; b) yaşadıqları dövlətin diaspora ilə bağlı siyasəti; c) yaşadıqları ölkənin mədəniyyətləri; d) müəyyən bir ölkənin diasporunun alt sistem kimi "dünyaya" daxil olması və ya regional diaspora (və ya bu amilin olmaması); e) potensial (sosial, iqtisadi, institusional, mənəvi) diaspora. Sistemin bütövlüyü özünütənzimləmə və özünü inkişaf etdirmə mexanizmlərinin olması ilə bağlıdır [13, s.40-41].

Beyin axını fenomeni və elmi diaspor mühacirət probleminin iki qütbüdür. Diasporun dörd əsas əlaməti vardır: 1. Öz vətəninin hüdudlarından kənardakı etnosun bir hissəsi olmaq; 2. Etnik identifikasiyasının saxlanması. Əgər diaspor assimilyasiya strategiyasını seçirsə, o diaspor adlandırıla bilməz. O, daha çox etnodispers qrupdur; 3. Başqa etnik mühitdə diasporun maraqlarını müdafiə edən lobbi kimi təşkilati formaların olması; 4. Konkret insanların sosial müdafiəsi; Qəbul edən ölkələrin dövlət institutunun strategiyasının olması [14, s.10].

Hazırda diaspor termini daha geniş – öz Vətəninin hüdudlarından kənarda yaşayan xalq və millətlərin bir hissəsi kimi başa düşülür. Yeni diaspor dalğasının, yəni insanların öz tarixi vətənlərindən kənarda kütləvi məskunlaşmasının tarixi 150 ildən artıq deyil. Öz ölkələrindən güclü köçkünlər dalğası XIX əsrin sonu – XX əsrin əvvəllərindən başlanmış, I və II Dünya müharibələrinin yekunlaşdığı ərəfədən sonra isə kütləvi miqrasiyaların ən yüksək miqyası qeydə alınmışdır. XX əsrin sonu bölünmüş xalqlar üçün sərt eksperimentlər dövrü olmuşdur. Bununla bağlı bu gün tarix və bu sahə ilə bağlı digər elmlər qarşısında baş vermiş və bu gün də davam edən kütləvi miqrasiyaların

siyasi və sosial-iqtisadi səbəblərini tədqiq etmək kimi mürəkkəb vəzifə durur. Milli diasporlar müasir iqtisadi, siyasi və mədəni əlaqələr kontekstində mühüm məsələ olsa da elmdə olduqca az öyrənilmiş problemlərdən biridir. Çünki, istənilən fəal milli diaspora istənilən ölkənin daxili siyasi həyatında öz yeri olan və dövlətlərarası münasibətlərin inkişafına ciddi təsir edən amillərdən biridir [2, s.4].

### 3. Azərbaycan diaspor quruculuğu və azərbaycançılıq

Qədim köklərə malik olan Azərbaycan diasporunun formalaşmasının əsasında mühacirət dayanır. Müxtəlif səbəblərdən xaricə miqrasiya edən həmvətənlərimiz assimilyasiyaya məruz qalmamışdılar. Buna səbəb kimi Vətənə bağlılıq, vətənə sədaqət və milli dəyərlərimizin təsir gücü və s. göstərilir. Azərbaycan mətbuatı, Azərbaycan ədəbiyyatı vətən həsrətini özündə qabarıq şəkildə göstərən yazılarla doludur.

Əgər həmvətənlərimizin mühacirətinin ilk mərhələləri istila, hərbi qarşıdurma, köçürmə siyasəti və s. ilə əlaqədardırsa sonrakı mərhələlərdə əsasən zəka axını müşahidə olunur.

ADR-in süqutdan sonra yaranan mühacirət əvvəlkilərdən bir çox cəhətinə görə fərqlənir. Əvvəlcə, bu mühacirət bir növ müstəqil dövlətin – onun liderlərinin mühacirəti idi. Əvvəlki illərdəki mühacirət, əgər belə demək mümkünsə, kortəbii idi, fərdi xarakter daşıyırdı, bir partiya, yaxud bir cərəyanın təmsilçiləri idi. 1920-ci il 27 Aprel inqilabından sonra mühacirətin sosial tərkibi, məzmunu da əhəmiyyətli dərəcədə dəyişmişdi. Elə bunun nəticəsi idi ki, həmin mühacirət tezliklə əks-səda verdi. Öz fəaliyyətini genişləndirdi, təbliğat maşınını işə saldı, təşkilatlandı [ 15, s.19-20].

Azərbaycan diasporunun təşkilatlanması, güclənməsi birbaşa Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev müstəqillik dövründə, hətta Azərbaycan SSRİ-nin tərkibində olan zamanlarda da diasporumuzun formalaşması istiqamətində duşunülmüş addımlar atmışdır.

Hər il dekabrın 31-də Azərbaycan Respublikası Prezidenti dünyanın istənilən bucağında yaşayan həmvətənlərimizə ümummilli səviyyədə ənənə halını almış müraciətlər edir, vətənpərvərlik ruhunda nitqlər söyləyir, çıxışlar edir, müvafiq sənədlər imzalayır. Bu çıxışlarda Azərbaycan diasporunun qarşısına xalqımızın milli maraqlarına cavab verən vəzifələr qoyulur, ən ümdə məqsədlər müəyyənləşir. Bütün bu irəli sürülən məqsəd və vəzifələr azərbaycançılıq ideologiyasına əsaslanır.

Hal-hazırda beynəlxalq arenada güclü erməni diasporu mövcuddur, hansı ki, dünyanın dörd bir yanında antiazərbaycan təbliğatı ilə məşğuldur. Bunun üçün də Azərbaycan dövləti bütün səylərini ortaya qoyaraq güclü diaspor formalaşdırmağa fokuslanmışdır. Azərbaycançılıq kimi həm milli, həm də ümumbəşəri dəyərləri özündə cəmləşdirən məfkurənin diaspor quruculuğu istiqamətində rolu danılmazdır.

Beləliklə, diaspor quruculuğu prosesində əməli tədbirlər həyata keçirilirdi. Ümummilli maraqlara söykənən azərbaycançılıq ideologiyasını əldə rəhbər tutaraq Dünya azərbaycanlılarının qurultayları keçirildi.

Dünya azərbaycanlılarının I Qurultayının keçirilməsinin mühüm nəticəsi olaraq diaspor hərəkatında fəallığın və lobbiçilik işinin artmasın təkan verilməsi oldu. Bu işlərin aparılmasının həvalə olunduğu Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası ilk 5 il ərzində diasporun formalaşması istiqamətində mühüm sayılan işlərin reallığa çevrilməsində həlledici rol oynadı. 2006-cı il martın 16-da Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən Dünya Azərbaycanlılarının II Qurultayı artıq görülmüş işlərə yeni çalarlar verdi. Azərbaycan-türk diasporlarının birləşməsi istiqamətində mühüm addım olan II Qurultay artıq diasporumuzun üzərinə böyük öhdəliklər qoydu. Bu işlərin reallaşması ilə diasporda aparıcı yer tutan ziyalı insanların çiyninə düşür [7, s. 10].

Dünya azərbaycanlılarınıın növbəti qurultaylarında da İlham Əliyevin təşəbbüsü ilə həmvətənlərimiz bir araya gəlmişdilər. Hər bir qurultayda diasporumuz üzərlərinə düşən öhdəliyin nə dərəcədə məsuliyyətli olduğunun fərqinə varmışlar və yüksək canfəşanlıqla fəaliyyət göstərmişlər.

Vətən müharibəsi zamanı diaspor üzvlərinin informasiya müharibəsində verdiyi dəstəyin davamı olaraq, xaricdə yaşayan azərbaycanlılar Qarabağın bərpasında da yaxından iştirak etmək istəyirlər. "Qarabağın Dirçəliş Fondu" bu dəstəyə mərkəzləşmiş, koordinasiyalı və şəffaf formada idarəetməni həyata keçirəcək" [8, s.146].

**Nəticə**

Diaspor quruculuğu sahəsində görülən hərtərəfli işlər nəticəsində Azərbaycan diasporu xeyli irəli getmiş və təşkilatlanmışdır. Bu prosesə həm Azərbaycan dövlətinin məqsədyönlü siyasəti, həm də diasporumuzun aktiv fəaliyyəti müsbət təsir göstərmişdir.

Azərbaycan diaspor quruculuğunda azərbaycançılıq ideologiyasının müstəsna rolu mili maraqlarımızı təcəssüm etdirməsidir. Azərbaycanılıq ideologiyası hə milli, həm də ümumbəşəri dəyərləri, eyni zamanda Şərq və Qərb sivilizasiyasının, avropaçılıq və türkçülük meyllərinin müsbət tərəflərini ehtiva etməsi müxtəlif regionlarda yaşayan diasporumuz üçün olduqca cəlbedici görünür.

Müasir dövrdə azərbaycançılıq ideologiyasından lobbiçiliyin inkişafında da yararlanmaq nəzərdə tutulur. İlk əvvəl xaricdə yaşayan həmvətənlərimiz lobbiçilik fəaliyyətinə başlamalıdır. Daha səmərəli lobbiçilik fəaliyyətinə nail olmaq üçün azərbaycançılıq ideologiyasını əldə rəhbər tutaraq diaspor – Vətən əlaqələri gücləndirilməlidir.

## ƏDƏBİYYAT


1. Ахундова Э. Гейдар Алиев. Личность и эпоха: в3-хтг. Т. 3. Возвращение (1990-2003). Москва: Издательство «Канон+» РООИ «Реабили тация», 2017, 624 с.
2. Azərbaycan diasporu: tarix və müasirlik. Bakı: Turxan NPB, 2016, 384 s.
3. Дмитриева А.В. Диаспоры и землячества: опыт регионального измерения: сборник статей. Москва: Русайнс, 2018, 226 с.
4. Əliyev Q.C. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı: Qismət, 2003, 248 s.
5. Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı: Nurlan, 2001,150 s.
6. Əliyev Z. Dünya diasporları (nəzəriyyə və təcrübə). Bakı: Qismət, 2005, 350 s.
7. İsmayılova E. Qloballaşma dövründə «zəka axını». Bakı: Elm, 2011, 176s.
8. Hüseynova İ.M. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri. Bakı: Füyuzat, 2021, 224 s.
9. Гейдар Алиев и идеология Азербайджанства. (https://www.aem.az/geydar-aliev-i-ideologiya-azerbaydzhanstva)
10. Мехтиев Р.Э. Национальная идея Азербайджана в эпоху глобальных трансформаций. Москва: Политическая энциклопедия, 2017, 365 с.
11. Mədətli E. Heydər Əliyevin siyasi irsi: azərbaycançılıq və Azərbaycan-Türkiyə birliyinin fəlsəfəsi. Bakı: Elm və təhsil, 2023, 324 s.
12. Məmmədov. R.R Azərbaycan diasporu (dərs vəsaiti). Bakı: Zərdabi Nəşr MMC, 2019, 312 s.
13. Полоскова Т.В. Современные диаспоры. Внутриполитические и международные аспекты. Москва: Научная книга, 2002, 284 с.
14. Seyidbəyli M.H. Azərbaycanın elmi diasporu. Bakı: Avropa nəşriyyatı, 2017, 200 s.
15. Tahirli A. Azərbaycan mühacirəti (tarixi, mətbuatı, mədəniyyət mərkəzləri). Bakı: Tural-Ə Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2001, 344 s.

**_Резюме_**

**_Парвана Мамедова_**

**_Роль Азербайджанской идеологии в диаспороительстве_**

Хотя представления о понятии азербайджанской диаспоры начали появляться в последнее время, история азербайджанской диаспоры, имеющей древнюю и современную историю, также древняя.

Хотя представления о понятии азербайджанской диаспоры начали возникать в последнее время, история создания азербайджанской диаспоры, имеющей древнюю и богатую историю, также древняя. Можно сказать, что азербайджанская диаспора имеет характеристики мощной диаспоры. Таким образом, основными целями, которые ставит перед собой азербайджанская диаспора, являются знакомство со своими национальными корнями, владение своими национальными достояниями и национальными богатствами, популяризация своей исторической родины среди других путем популяризации ее в зарубежных странах, сотрудничество со своей родиной и государствами.

По сравнению с другими народами наши соотечественники были более привязаны к своей Родине и земле. В целях укрепления чувства привязанности к Родине у наших соотечественников, проживающих в разных уголках мира, была проведена целенаправленная работа, организованы многочисленные встречи. В Европе, Северной Америке, странах СНГ и т.д., где существует азербайджанская диаспора. были созданы организованные организации и общества. Азербайджанское государство всегда стояло рядом с нашей диаспорой, определяя, что единство азербайджанцев мира необходимо с точки зрения государственных интересов.

Именно идеология азербайджанизма принята в качестве механизма и философской основы объединения азербайджанцев мира.

Причина успеха идеологии азербайджанизма для гражданского союза в том, что она защищает национально-нравственные ценности нашего народа и воплощает в себе одновременно интересы как граждан, так и государства. Идеология азербайджанизма – это концепция, выражающая детальное объяснение азербайджанской концепции, классификацию исторических и политических факторов, объединяющих наших соотечественников, проживающих за рубежом, и задач, стоящих перед государством в области защиты их прав и свобод. Азербайджанизм – это идеология, которая является надежным источником ориентиров для любого, живущего в любой части мира, считающего себя азербайджанцем, независимо от его национальности.

**_Ключевые слова:_** _национальная идеология, национальное единство, азербайджанство, азербайджанская диаспора, диаспоростроение_

**_Summary_**

**_Parvana Mammadova_**

**_The role of Azerbaijan ideology in diaspor construction_**

Although ideas about the concept of the Azerbaijani diaspora began to appear in recent times, the history of the creation of the Azerbaijani diaspora, which has an ancient and rich history, is also ancient.

Although ideas about the concept of the Azerbaijani diaspora began to emerge in recent times, the history of the creation of the Azerbaijani diaspora, which has an ancient and rich history, is also ancient. We can say that the Azerbaijani diaspora has the characteristics of a powerful diaspora. Thus, the main goals set by the Azerbaijani diaspora include getting to know their national roots, owning their national assets and national wealth, promoting their historical homeland to others by promoting it in foreign countries, and cooperating with their homeland and states.

Compared to other nations, our compatriots were more attached to their motherland and land. In order to strengthen the feeling of attachment to the motherland of our compatriots living in different corners of the world, purposeful work was done and numerous meetings were organized. In Europe, North America, CIS countries, etc., where the Azerbaijani diaspora exists. organized organizations and societies were created. The state of Azerbaijan has always stood by our diaspora, determining that the unity of the world's Azerbaijanis is necessary from the point of view of state interest.

It is the ideology of Azerbaijanism that has been accepted as the mechanism and philosophical basis for uniting the world's Azerbaijanis.

It is the ideology of Azerbaijanism that has been accepted as the mechanism and philosophical

basis for uniting the world's Azerbaijanis.

The reason why the ideology of Azerbaijaniism is successful for the civil union is that it defends the national and moral values of our people and embodies the interests of both citizens and the state at the same time. The ideology of Azerbaijanism is a concept that expresses the detailed explanation of the Azerbaijani concept, the classification of historical and political factors that unite our compatriots living abroad, and the tasks facing the state in the field of protecting their rights and freedoms. Azerbaijanism is an ideology that is a solid source of reference for anyone living in any part of the world who considers himself an Azerbaijani, regardless of his nationality.

***Key words:*** *National ideology, national unity, Azerbaijaniness, Azerbaijani diaspora, diaspora construction*

Redaksiya heyətinin üzvü s.e.d., prof. Məmmədov Hikmət Baba oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.